# Avropadan asılı olanlar...

## Dost ölkələrin Qərb "sevdası" onlara başucalığı gətirmir



**"Azərbaycan üzv olduğu beynəlxalq təşkilatardakı dövlətlərlə hər zaman ikitərəfli səmərəli əməkdaşlıq yaratmaqda maraqlı olub. Eləcə də GUAM (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) regional təşkilatında müttəfiqləri ilə yaxşı münasibətlər formalaşdırıb, əvvəl Özbəkistan bu təşkilata üzv olsa da, daha sonra ayrılıb və Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova üzv dövlətlər olaraq qalıblar. Lakin bu üç ölkənin hər biri Avropa İttifaqı üzvlüyünə namizəd kimi qeydə alınmaq üçün Qərbə daha çox meyilləniblər".**

Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, Qərbə meyillənən dost ölkələr hətta bu məqsədlə Azərbaycanla münasibətlərinə belə xələl gətirə bilirlər. Çünki onlar Avropadan asılı vəziyyətdədirlər.

Burada əsas və təsiredici məqam isə hər üç ölkənin separatizmdən əziyyət çəkməsidir: "Azərbaycan separatizm problemini həll etdiyi üçün Avropa Şurası bizim üzərimizə gəlir. Təəssüf ki, burada da xristian təəssübkeşliyi, islamofobiya, Qərbin diktəsi ilə hərəkətlər başlıca yer tutur. Avropadan asılı olan ölkələr ona görə də Azərbaycanla münasibətlərə ciddi xələl gətirirlər. Amma Azərbaycan hər zaman bu üç dövlətlə normal, səmimi münasibətlərin tərəfdarı olub, onların ərazi bütövlüyünü dəstəkləyib. Bu baxımdan həmin ölkələrin AŞPA-da sərgilədikləri mövqelərinə ancaq təəssüf etmək olar".

T.Kərimli hesab edir ki, belə davranış bu dövlətlərin heç birinə başucalığı gətirmir. Azərbaycan düz yoldadır, dövlət suverenliyini və ərazi bütövlüyünü qorumaq üçün bu istiqamətdə yürütdüyü siyasətdə haqlıdır.

Ümumilikdə, AŞPA-nın Azərbaycan əleyhinə qərəzli kampaniyası, ikili standartlar siyasəti, ölkəmizə qarşı ədalətsiz mövqeyi yersizdir. Yəni bununla bu təsisat nəsə əldə edə bilməyəcək. Bu baxımdan itirən ölkəmiz əleyhinə səs verənlər, Qərbin müəyyən dairələrinin diktəsi ilə oturub-duranlardır. Azərbaycanı ədalət yolundan heç kim döndərə bilməz.

***Əsmər QARDAŞXANOVA ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 4 fevral, № 24.- S.3.